# *DİL ÜZRE QISSA SÖZLƏR*

***TOPLAYAN***

***HƏSƏN BƏY HADI***

***TƏBRİZ***
**1384**
**2005**

**bir dil bilən bir öz dilin bilməyə, necə deyim insan.**

**anamın şirin dilinin fərhadiyəm.**

**baş ; dililə asılar .**

**başsız gələn mal batsın ; vaxsız diyən(dinən) dil batsın.**

**bir ağızdan çıkar ; min dilə yayılar .**

**danışdın dilivə ; yeməkdə əlivə yiyə ( yiyələn) .**

**dilənçiyə üz vermə , xəbərçiyə söz vermə .**

**dili doğru ; yolu doğru .**

**dilim var ; elim var .**

**dilimi türk görür ; dilimi tükə bağlır .**

**dilini gör ; elini gör .**

**dilli elin ; özüdə var, üzüdə var, sözüdə var .**

**dilsiz elin daşı çox ; ürək kövrək dağı çox, öz dilini bilməsə ;**

**doğma elin yadı çox .**

**dilsiz elin, sözü yox .**

**el dediyin kimindir , dil dediyin elindi .**

**el gözünü dil açar**

**elin ağzı torba deyil ; büzəsən .**

**eldən qalan dil olar , seldən qalan iz olar . oddan qalan kül olar .**

**əli əyrinin ; dili düz olmaz .**

**əziziyəm dil açar; bərk torpağı bel açar, toprağ sənin dil başqa; körpə dilin kim açar .**

**əziziyəm dilim dilim ; kəs qarpızı dilim dilim ; əlçəkmərəm dilim dən ; kəssən dilim , dilim-dilim .**

**ağıl dili basar ; dildə gücü .**

**hançı eldən yok ; hançı dildən diyəllər !**

**hardan gəlirsən – bülbül qalasından ; niyə başın qanlıdır – dilim bəlasından .**

**heyvan ilişə ilişə ; insan diləşə diləşə**

**ipin uzunu dilin qıssası**

**qara(qəhbə) elin ; qara(qəhbə) dili var , dil yoxdusa elin kimi var ?**

qatır , əlilə ayaqdan ; insan , dililə başdan bəlaya düşər .

qeyrətsizin dilin al ; dilin verdi gözün al .

qulağı açan dil olur ; dilsiz qulağ kar olur .

ölmüş atın , nalı sökülər ; dilsiz elin başı .

pıçaq yarar , iz qoyar ; dil yarası köz qoyar .

yıxılsan dizindən gör ; əzilsən dilindən gör.